Vüqar Van

# Hardasa, olardı 13-14 yaşım

qanun nəşriyyatı

**Vüqar Van  Hardasa, olardı 13-14 yaşım**
Bakı, Qanun Nəşriyyatı, 2024, 208 səh.

Janr: roman
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 28.11.2024

| | |
|---|---|
| Redaktorlar: | Seymur Baycan,<br>Şəhriyar Del Gerani,<br>Nadir Yalçın |
| Mətn dizaynı: | Sabina Aydın |
| Texniki redaktor: | Xəyalə Əhmədova |
| Qapaq dizayneri: | Babək Otrok |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431–16–62; 431–38–18
Mobil: (+994 55) 212–42–37
e–mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-577-83-9

© Qanun Nəşriyyatı, 2024
© Vüqar Van, 2024

Kitabın qəhrəmanı öz hekayəsini yeniyetməliyin ən doğma və həssas detalları ilə toxuyub bütün çılpaqlığı ilə təqdim edir. Yazıçı avto-fiksiyaya yeni baxış gətirərək şəxsi təcrübələrini bədii dillə birləşdirir. Romanda yeniyetməlik dövrünün qaynar böhranları təsvir olunur. Yumorun, əyləncəli atmosferin arxasında mənəvi axtarışlar gizlənir.

**Vüqarın romanı oxuyacağınız ən gözəl əsərlərdən biri olacaq**

**Seymur Baycan**

**Romanı oxuyandan sonra məndə elə bir təəssürat yarandı ki, bunu nə vaxtsa oxumuşam. Bir neçə gün sonra təkrar oxudum, gördüm, yox, ilk dəfədir...**

**Şəhriyar Del Gerani**

**Bitkin və mətləblərarası əlaqələrin sıx qurulduğu "Hardasa, olardı 13-14 yaşım" romanı həyatın müxtəlif üzləri ilə yenicə tanış olanların manifesti, təlatümlərinin axıcı, çevik təhkiyə ilə bədii əksi olmaqla yanaşı, maraqlı süjet, oxucunu özünə cəlb edən situasiyalarla zəngindir.**

**Nadir Yalçın**

## Mündəricat


1. Vüqarı muzeydə əsəbiləşdirən nə idi?......................7
2. Məktəbdə Vüqarın başına çox pis hadisə gəlir........22
3. Vüqar qız istəyir, özü də necə!...............................33
4. Vüqargili Bakıya köçməyə vadar edən nə idi?........47
5. Necə olur ki, Vüqar dinə gəlir?...............................58
6. Vüqarın musiqi məktəbinə getməkdə məqsədi.............................................................70
7. Görün, Vüqar kənddə nə etdi!.................................80
8. Vüqarı Elçin müəllimin yanına getməyə qoymayan səbəblər.....................................................88
9. Vüqarın ovda başına gələnlər.................................96
10. Vüqar özünə təzə ayaqqabı alır...........................104
11. Vüqar çıxılmaz vəziyyətdə qalır..........................128
12. Vüqarın anasının təndiri......................................142
13. Vüqargil hamam tikir...........................................152
14. Vüqar sevinir.......................................................178
15. Vüqar dəhşət qorxur və beləliklə, məyus olur.....193

***Anama...***

## Vüqarı muzeydə əsəbiləşdirən nə idi?

Bizim ev "Köhnə xəstəxana" deyilən məhəllənin axırında idi. Məhəlləmiz əvvəllər balaca xəstəxana şəhərciyi imiş, təzə xəstəxana tikiləndən sonra buranı evsiz sakinlərə paylayıblarmış.

Evlər yanbayan, səliqəylə, yarımdairəvi düzülmüşdü, ortada bomboş yer qalmışdı. Məhəllənin giriş ilə çıxışı bir idi.

Deyilənə görə, evimiz köhnə xəstəxana vaxtında aptek imiş. Evimizin əvvəllər aptek kimi istifadə olunduğu haqqında nə qədər fikirləşsəm də, təsəvvür edə bilmirdim; satıcı harda dayanırmış, dərmanları hara yığırmışlar, hansı otağımızı anbar kimi istifadə edirmişlər, müştərilər haradan girib, haradan çıxırmışlar?

Əgər mətbəxi saysaq, evimiz altıotaqlı idi, hər otağın da bir adı vardı. Girən kimi sağda mətbəx, ortada eyvan (biz zala eyvan deyirdik), solda orta otaq, orta otağın yanında Aliyənin otağı, eyvandan sağda televizor olan otaq,

ən axırda da o biri otaq. Günlərimizi televizor olan otaqda keçirir, orda yatır, orda durur, orda yemək yeyirdik. Orta otağın yanındakı otağa bacımın adını versək də, bizim şəxsi otağımız yox idi. Televizor olan otaqda həm odunla, həm də qazla işləyən soba vardı. Evi onunla isidirdik.

"Köhnə xəstəxana"nın təxmini xəritəsi belədir.

Azadgilin evi. Arvad – İlhamə, uşaqlar – Azər, İlahə, Səbinə. Azər bacımla doqquzda, Səbinə mənlə beşdə, İlahə isə özbaşına səkkizdə oxuyur. Azad bənna, İlhamə evdar qadındır. Sakit, mehriban, xeyirə-şərə yarayan ailə olduqları üçün məhəllədə hamı onları çox istəyir.

Araz müəllimin evi. Arvad – Ofeliya. Evin tək uşağı – Çingiz. Uşaq bağçaya gedir. Ofeliya evdar qadındır. Araz tarix müəllimidir.

Şakirgilin evi. Arvad – Əzəmət, uşaqlar – Famil və Amil. İkisi də məktəbi bitiriblər. Şakir İrandan alverlə məşğuldu, arvadı Əzəmət evdar qadındır.

Elmangilin evi. Arvad – Nailə, uşaqlar – Leyla və Aytac. Qızların ikisi də Bakıda universitetdə oxuyur. Elman təzə rəhmətə gedib. Nailə isə bir idarədə mühasibdir. O, anamla yaxın rəfiqədir.

Sərrafgilin evi. Arvad – Firəngiz, evin tək uşağının adı Elvin. Elvinin boyu çox uzundu, o da məktəbi bitirib. Sərraf işıq idarəsində işləyir. Firəngiz evdar qadındır, hardasa yas düşən kimi məhəllənin arvadlarını bir yerə o toplayır, yaslarda ürəkdən ağlayır, ağı deyə-deyə özündən çıxır. Hamı onun xətrini istəyir, səmimi və zarafatcıldır.

Akifgilin evi. Arvad – Aygün. Uşaqlar – İlham və Bəxtiyar. İlham ailəlidir, Bəxtiyar da məktəbi təzə bitirib. Akifin mebel mağazası var. Rayona ilk çanaq antenanı o gətirib. Məhəllənin ən varlı ailəsi onlardır. İlham və Bəxtiyar atalarının dükanında işləyirlər.

Təndir. Məhəllədə kimin təndiri yoxdur, burda çörək bişirir.

Atlasın evi. Atlas tək yaşayır, heç kimi yoxdur. Altmışdan çox yaşı var. Evdən çölə çıxmır, hamıdan zəhləsi gedir. Heç kimin onun işindən-gücündən, ailə-uşağından xəbəri yoxdur. Məhəllədəki bütün uşaqlar ondan qorxur.

Zöhrabgilin evi. Arvad – Afət, uşaq – Bahar. Baharın altı yaşı var. Zöhrab hinduşka satır, Afət isə küçə süpürür, rayondakı varlı ailələrin evinə xalça-palaz yumağa, mürəbbə bişirməyə, ev təmizləməyə gedir. Evlərinin damı deşik-deşik olub, hər dəfə yağış yağanda içəri su damır. Məhəllədəki yeganə ev telefonu onlardadır.

Sevilgilin evi. Ər yoxdur, ölməyib, harasa getsə də, ailə üçün ölmüş kimi bir şeydir. Uşaqlarının adı – Aliyə və Vüqar. Aliyə doqquzda, Vüqar isə beşdə oxuyur. Anamız tarix-diyarşünaslıq muzeyinin direktorudur.

O, 1957-ci ildə Lerik rayonunun Pirasora kəndində anadan olub. Anamgil iki bacı, iki qardaşdılar. Uşaqların ən balacasıdır. O doğulanda nənəm Cəfər Cabbarlının "Sevil" əsərini oxuyurmuş. Əsərdən ilhamlanıb, anamın adını Sevil qoyub. Otuz altı yaşına qədər ailə qurmayıb, oxumaq istəyirmiş. Buna görə sənədlərini evdən gizlin hər yerə göndərirmiş.

Günlərin bir günü kənddəki evlərinin qabağında oturub, 4-5 yaşlı qardaşı qızının saçını darayarkən birdən görüb ki, uzaqdan yaşıl rəngli "Vilis" gəlir. Gözdən itənə qədər maşının arxasınca baxıb, yenə işinə davam edib. Bir azdan yaşıl "Vilis" onların qapısının ağzında dayanıb, maşından anamın böyük qardaşı ilə birlikdə iki kişi (onlar rayondan anamın universitetə qəbul olunmaq xəbərini gətirən adamlar idi) düşüb. Dayım gəlib anama talışca deyib ki, kinə, bışi ştə oləton tankə, ımon bo tı omən[1]. Beləcə, bir neçə imtahandan keçəndən sonra anam otuz iki yaşında Politologiya İnstitutu qəbul olub.

Universiteti bitirəndən sonra Lerikə qayıdıb. Əvvəl İcra Hakimiyyətində işləyib, sonra Lerik rayon Tarix-Diyarşünaslıq Muzeyində direktor olub. Həmin vaxtlarda da ailə qurub, birinci bacım, sonra mən doğulmuşam. Mən ana bətnindəykən atam Rusiyaya işləməyə gedib və bir də qayıtmayıb. Anam adımı Mehman qoymaq istəyirmiş, sonradan Vüqar qoyub.

Dörd yaşıma qədər anam mənə süd verirdi. Çöldə-bayırda, qonaq getdiyimiz evdə, iş yerində ağlayıb süd istəyirdim. Anam mənim süd istəməyimdən utanırdı. Hərdənbir elə yerlərdə süd istəyirdim, məni çimdikləyirdi, təpinir, gözünü ağardırdı. Üç-dörd yaşlı uşağın hələ də süd istəməyi pis şey sayılsa da, bu vərdişimdən heç cür əl çəkə bilmirdim. Bu problemdən bir çıxış yolu tapmışdım. Onu camaatın içində əsəbiləşdirib utandırmamaq üçün süd istəyəndə "quş" deyirdim, o da başa düşürdü.

[1] Ay qız, get paltarlarını geyin, bunlar səninçün gəliblər.

Evdə tərbiyəsiz sözlər işlətmək, ürəyin istədiyi kimi danışmaq qadağan olduğu üçün başqa "tərbiyəsiz" sözləri də özümdən uydurduğum sözlərlə əvəz etmişdim. İşəmək istəyəndə gəlib camaatın yanında anama "işəməyim var" demirdim. "Tıxk" deyirdim, o bilirdi ki, işəməyim var.

Anam günün çox hissəsini işdə olurdu. Mən də dərsdən sonra muzeyə gedir, kabinetindəki yumşaq kreslosunda oturur, televizora baxır, kompüterdə qurdalanırdım. Özümü muzeydə evdəkindən daha rahat və azad hiss edirdim. Anamın başı işə qarışırdı deyə mənlə çox maraqlana bilmirdi. O vaxt muzeydə qala bilərdim ki, səs çıxarmayım, nəyisə sındırmayım, onu narahat etməyim.

Muzeyin köhnə, birmərtəbəli binası rayonun düz mərkəzində yerləşir. Qabağında böyük park var. Əvvəllər həmin parkın ortasında uzunluğu 4-5 metr olan dəmir bir abidə ucaldılmışdı, üstündə şinelli, kaskalı sovet əsgərlərinin şəkilləri həkk olunmuşdu. Əsgərləri ancaq diqqətlə baxanda görmək olurdu. Onlar əllərində silah tutub harasa gedirdilər. Sonra həmin abidəni söküb parka təzə daş döşədilər, abidənin yerində də fontan düzəltdilər.

Muzeyin düz sağında rayonun ilk şadlıq sarayı – "Nur" yerləşirdi. "Nur" sözü ortada, "şadlıq" sözü solda, "sarayı" sözü sağda yazıldığı üçün onun adını həmişə səhv oxuyurdum. Adi qaydada da oxuyanda belə olurdu: "Şadlıq Nur Sarayı". "Nur", əslində, saray deyildi. Balaca, 70-100 nəfərlik restoran idi. Bütün kəndlər bura axışdığı üçün orda məhərrəmlik və səfər ayından başqa, demək olar, hər gün toy olurdu. Kənddə palçığın, ya-